# Sizin üçün ən çox qorxduğum kiçik şirkdir" Dedilər: Kiçik şirk nədir, ey Allahın Rəsulu? Belə buyurdu: “Riya

Mahmud bin Ləbiddən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizin üçün ən çox qorxduğum kiçik şirkdir" Dedilər: Kiçik şirk nədir, ey Allahın Rəsulu? Belə buyurdu: “Riya. İzzət və cəlal sahibi olan Allah Qiyamət günü, insanların əməllərinin qarşılığı veriləcəyi zaman onlara deyəcək: “Dünya həyatında özünüzü göstərdiyiniz insanların yanına gedin və baxın görün özünüz üçün onlarda bir mükafat tapırsınızmı?

[Həsən] [Əhməd rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, ümməti üçün ən çox qorxduğu məsələ, kiçik şirkdir ki, bu da riyadır- yəni adam insanlar üçün əməl edir. Sonra Qiyamət günü riyakarların cəzasından xəbər verir ki, onlara deyiləcək: Könüllərini almaq üçün çalışdığınız insanların yanına gedin və baxın görün, onlar sizi mükafatlandırmaq iqtidarındadılarmı?!

https://sunnah.global/hadeeth/az/show/3381